

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 118 (23.029)

28 iyun 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də ABŞ dövlət katibinin Cənubi və Mərkəzi Asiya məsələləri üzrə köməkçisinin birinci müavini xanım Alis Uelsi qəbul edib.

Xanım Alis Uels Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun toplantısına Azərbaycanın ev sahibliyi etməsi ilə bağlı minnətdarlığını bildirib və bu tədbirin böyük önəm daşıdığını deyib.

Dövlətimizin başçısı xanım Alis Uelsin bu tədbirdə iştirak etməsindən məmnunluğunu bildirib.

Prezident İlham Əliyev Azərbaycanın həyata keçirdiyi nəhəng enerji layihələrinin reallaşmasına ABŞ hökumətinin verdiyi dəstəyin böyük önəm daşıdığını vurğulayıb və bildirib ki, Azərbaycan hər zaman müxtəlif enerji layihələri, o cümlədən böyük əhəmiyyət daşıyan “Cənub Qaz Dəhlizi” layihəsinin reallaşmasında bu dəstəyi hiss edib.

Söhbət zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin siyasi, iqtisadi, enerji və təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi qeyd olunub, əlaqələrimizin bundan sonra genişlənəcəyinə əminlik ifadə edilib.

## E.M.Əliyevin Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elşad Məmmədqulu oğlu Əliyev Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 27 iyun 2018-ci il*

## E.M.Əliyevin Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elşad Məmmədqulu oğlu Əliyev Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 27 iyun 2018-ci il*

## Gürcüstanın Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Naxçıvanda işgüzar səfərdə olub





İyunun 27-də Gürcüstanın Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Zurab Pataradze Naxçıvan Muxtar Respublikasında işgüzar səfərdə olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gürcüstanın Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Zurab Pataradze ilə görüşüb.

Ali Məclisin Sədri qonağı salamlayıb, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında iqtisadi-ticarət, təhsil, səhiyyə və digər sahələrdə əlaqələrin inkişaf etdiyini bildirib. Əlaqələrin genişləndirilməsi üçün potensialın olduğunu qeyd edən Ali Məclisin Sədri dostluq və qarşılıqlı əməkdaşlığa əsaslanan münasibətlərimizin bundan sonra da genişlənəcəyinə əminliyini bildirib.

Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Zurab Pataradze göstərilən diqqətə görə minnətdarlıq edib, Naxçıvanda olmaqdan məmnunluğunu bildirib. Hər iki muxtar qurum arasında həyata keçirilən qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan Zurab Pataradze qarşılıqlı əlaqələrin inkişafının əhəmiyyətini vurğulayıb.

Söhbət zamanı Naxçıvan və Acarıstan muxtar respublikaları arasında əlaqələrin inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

* * *

Həmin gün Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Zurab Pataradze muxtar respublikanın istehsal və sənaye müəssisələrində olub.

“Cahan Tabak” Məhdud Məsuliyyətli Cəmiyyətində qonağa məlumat verilib ki, şirkətdə tütün məhsulları istehsal olunur. Müasir avadanlıqlarla təchiz edilmiş müəssisənin istehsal gücü dəqiqədə 3 min filtrli siqaretdir. Şirkətdə istehsal prosesinin keyfiyyətli xammal və beynəlxalq standartlara cavab verən texnologiyaya əsaslanması daxili bazarda tələbatı ödəməklə yanaşı, ixrac imkanı da yaradır. Qeyd olunub ki, xammala olan tələbatın yerli istehsal hesabına ödənilməsi diqqətdə saxlanılır. Ötən il Kəngərli rayonunda “Cahan Tabak” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yeni Tütün Yetişdirmə Təsərrüfatının yaradılması da yerli istehsalın artırılmasına hesablanıb.

“Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə tanışlıq zamanı qeyd olunub ki, cəmiyyətin Naxçıvan şəhərində, Babək rayonunun Araz və Kəngərli rayonunun Qarabağlar kəndlərində istehsal müəssisələri, Kəngərli rayonunun Qarabağlar və Çalxanqala kəndlərinin ərazilərində isə daş karxanaları fəaliyyət göstərir. Müəssisədə yerli xammaldan səmərəli istifadə olunur. İstehsal edilən tikinti materialları muxtar respublikamızda aparılan quruculuq tədbirlərinin daha geniş vüsət almasına imkan verir. Qarabağlar və Çalxanqala kəndləri ərazilərindəki yataqlardan çıxarılan travertin və mərmər daşlar emal üçün Naxçıvan şəhərində yerləşən müəssisəyə gətirilir. Məhsul buraxılışında istifadə edilən daşlar təbii olaraq antibakterial keyfiyyətə malikdir. Gündəlik istehsal gücü 2000 kvadratmetr olan müəssisədə klassik ağ və qara suyollu travertin məhsulları ilə yanaşı, Naxçıvan sədəfi və qara inci mərmər də istehsal edilir.

“Cahan Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə tanışlıq da maraqla qarşılanıb. Diqqətə çatdırılıb ki, müəssisənin istilik panelləri sahəsinin gücü ayda 9500 metr panel və 8000 metr alüminium radiator, dam örtükləri sahəsinin gücü isə ayda 250 min kvadratmetr metal dam örtüyüdür. Standartlara uyğun istehsal olunan məhsulların 20 faizi yerli tələbatı tam ödəyir, 80 faizi isə ölkəmizin digər bölgələrində və xarici bazarlarda satışa çıxarılır.

Plastik boru, profil və aksesuarlar istehsalı müəssisəsi də nümayəndə heyətinin diqqətini cəlb edib. Bildirilib ki, 14 min kvadratmetr sahəsi olan müəssisə istehsal sahəsindən, idarəetmə və iş otaqlarından, laboratoriya, hazır məhsul və xammal anbarlarından ibarətdir. İstehsal sahəsində tam avtomatlaşdırılmış avadanlıqlar quraşdırılıb. İstehsal gücü ayda 1500 ton olan müəssisədə 7 növdə və 160 çeşiddə məhsul istehsal olunur.

Acarıstan Muxtar Respublikasının nümayəndə heyəti Naxçıvan şəhərində aparılan abadlıq-quruculuq işləri ilə də tanış olub.

Gürcüstanın Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Zurab Pataradze kütləvi informasiya vasitələrinə müsahibə vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Tibb fakültəsində məzun günü keçirilib



Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində məzun günü keçirilib. Tədbiri giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq Azərbaycanda elm və təhsilin inkişafından, muxtar respublikada kadr potensialının gücləndirilməsinə göstərilən yüksək dövlət qayğısından danışıb.

Fakültənin dekanı, dosent Elsevər Əsədov “Tibb fakültəsində tədris ilinin yekunları və qarşıda duran vəzifələr” mövzusundakı məruzəsində qeyd edib ki, bu il fakültə üzrə 75 məzun ali təhsilini başa vurub ki, onlardan 11-i xarici ölkə vətəndaşıdır.

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov gələcəyin həkim kadrlarının yetişməsində universitetin rolunu yüksək qiymətləndirib, muxtar respublikada səhiyyəyə göstərilən hərtərəfli dövlət qayğısından danışıb, məzunlara xalqımızın sağlamlığının keşiyində layiqincə durmağı arzulayıb.

Azərbaycan Tibb Universitetinin I Uşaq xəstəlikləri kafedrasının müdiri, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində Yekun Dövlət Attestasiya Komissiyasının sədri, akademik Adilə Namazova vurğulayıb ki, Azərbaycan səhiyyəsinin inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Akademik gələcəyin həkimlərinə bu peşənin sirlərinə dərindən yiyələnməyi və daim öz üzərlərində işləməyi tövsiyə edib.

Valideynlər adından Aytəkin Hacızadə, Ülviyyə Tarverdiyeva məzunları təbrik ediblər.

Sonra məzunlar Hippokrat andı içiblər.

Tədbir şeir və mahnılardan ibarət bədii kompozisiya ilə davam edib.

Sonda məzun tələbələrlə xatirə şəkli çəkdirilib.

**Səadət ƏLİYEVA**


Qızılqaya zirvəsində Azərbaycan bayrağı


Qızılqaya ətrafında Arpaçay dəryaçası


Qızılqaya

# QIZILQAYA ODASI

## Qızılqaya zirvəsində, Günnütdə Azərbaycan bayrağının dalğalanması İlham Əliyevin qalibiyyət yürüşünün növbəti zəfəridir

***Müstəqil Azərbaycan dövləti özünün məsuliyyətli və şərəfli tarixinin yeni mərhələsini yaşayır. Bütün yönləri ilə yüksək templərlə inkişaf edən ölkəmizdə artıq ərazi bütövlüyü məsələsinin həlli istiqamətində də qətiyyətli addımlar atılmaqdadır. 2016-cı ilin aprel döyüşləri süni şəkildə uydurulmuş yalançı erməni mifini dağıtmış, Azərbaycan Ordusunun qüdrətinə inam yaratmışdır.***







Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Lələtəpə yüksəkliyinin fəth edilməsi və işğaldan azad edilmiş ərazilərdə – Cocuq Mərcanlı kəndində müasir həyatın əsaslı şəkildə bərpa edilməsi ilə Dağlıq Qarabağ probleminin həll ediləcəyinə xalqımızda dərin inam formalaşmışdır. Nəticə etibarilə, Lələtəpə yüksəkliyinin fəth edilməsi böyük qələbənin dərk edilməsinə, yeni baxışa çevrilmişdir. Cocuq Mərcanlı kəndinə qayıdış doğma torpaqlara dönüşün Azərbaycan tarixinə həkk olunmasına şərait yaratmışdır.

Bütövlükdə, *Lələtəpə-Cocuq Mərcanlı Azərbaycanın Dağlıq Qarabağ uğrunda haqlı mübarizəsinin böyük startının uğurlu başlanğıcı olmuşdur.*

*Naxçıvan Muxtar Respublikası ərazisində Qızılqaya yüksəkliyinin 2018-ci ildə fəth olunması isə böyük qələbənin çox da uzaqda olmadığına dərin inam yaratmışdır.*

Şərur rayonundakı Danyeri kəndi ərazisindəki Qızılqaya Naxçıvan Muxtar Respublikası ilə sonradan bolşeviklərin Azərbaycan torpaqlarında "Ermənistan" adlı dövlət yaratmaq üçün həmin ölkənin ərazisinə daxil etdikləri əhalisi tamamilə azərbaycanlılardan ibarət olan Dərələyəzlə və Əyricə yaylaqları arasındakı möhtəşəm dağ zirvəsidir.

Bu baxımdan *hündürlüyü 1648 metr olan Qızılqaya Azərbaycanın Ermənistanla dövlət sərhədində mühüm strateji əhəmiyyətə malik olan özəl Qayadır. Arpaçayın sol yatağı tərəfdən qarşısındakı Böyük və Kiçik Qala dağlarının ətəyindəki Yastan yaşayış yerinin də sağ sahilindəki Qarağac-Qaraqasım məskənlərində Danyeri kəndi sakinlərinin ulu əcdadları yaşamışdır.*

Arxeoloqların fikrincə, *Yastan yaşayış məskəni ərazisindəki qədim qəbiristanlıqların ən azı 3 min ilə yaxın yaşı vardır.* Xalq arasında Yastan və Qara Qasım qəbiristanlıqları Oğuz qəbiristanlıqları adlandırılırdı. Buradakı uzun məzarların üzərindəki böyük başdaşları "Kitabi-Dədə Qorqud" dastanlarındakı təsvirlərlə səsləşir.

*Qızılqaya ətəklərindəki günün vaxtını – saatı bildirən Hacıəlibəyin daşı isə Dədə Qorqud boylarındakı Günortac daşı idi.* Bütün bunlara görə Qızılqaya ətrafı azərbaycanlıların yaşadıqları ən qədim, əzəl Qayadır.

*Azərbaycan Əlahiddə Ordusu Qızılqaya yüksəkliyini fəth etməklə dədə-babalarımızın 11 min hektar tarixi torpaqlarını geri qaytarmaq yolunda böyük zəfər qazanmışdır.*

Qızılqaya yüksəkliyinin sağ aşırımında vaxtilə azərbaycanlıların yaşadıqları və Şərur mahalına aid olan Günnüt, Çanaxçı və Çivə kəndləri yerləşir. Sovet rejimi 1929-cu ildə Çanaxçı və Çivə kəndlərini, Qızılqayanın sol alnındakı Amağu kəndini Ermənistana "bəxş etmişdir". Şərur rayonunun Yuxarı Yaycı kəndi ərazisinə yaxın olan Xəcik kəndi də vaxtilə Ermənistanın xeyrinə Azərbaycandan alınmış yaşayış məskənlərindən biridir. Bu ərazilərdə yalnız Günnüt kəndi Naxçıvan Muxtar Respublikasının ərazi vahidi kimi saxlanılmışdır.

Şərur rayonunun Danyeri kəndindən Günnüt kəndinə cəmi 4-5 kilometrlik məsafə vardır. Atam Əkbər Həbibbəyli 1941-ci ilin sentyabr ayından 1942-ci ilin yanvar ayınadək qonşu Günnüt kəndində müəllimlik etmiş, həmin kənddən Böyük Vətən müharibəsinə yola salınmışdır.

Danyeri kəndinin sağ tərəfindən Günnüt kəndinə Quladaşın dərəsi adlanan ara yolla bir saatdan bir qədər çox vaxta getmək mümkündür. Vaxtilə Günnüt kəndində kolxoz sədri vəzifəsində çalışmış Ələşrəf kişinin gün ərzində at ilə və ya piyada Danyeri kəndinə gəlib-qayıtdığını kəndimizin adamları yaxşı xatırlayırlar. Yaxud Günnüt kəndində ibtidai məktəbi bitirmiş yeniyetmələr də Quladaşın dərəsindən keçən kəsə yolla rahatlıqla Danyeri kəndinə gəlib təhsillərini davam etdirmişlər.

Biz məktəbli ikən Qızılqaya ətəklərindən və Qarağacın üstündəki Bacalı Qayadan Günnüt kəndinə əl içi kimi baxmışıq. Günnüt kəndinin qarşısından Qızılqaya ətrafından Çivə kəndinə qədər olan ərazidə yerləşən "Pəyədərə" və "Zərdədərə" adlanan örüş və əkin yerlərindən Danyeri kolxozu həmişə qışlaq yeri və dəmyə əkin torpaqları kimi istifadə etmişdir.

Eyni zamanda Qızılqayanın qarşısında Arpaçayın sol ətəyindəki Mehri dərəsi də qədim bəy torpaqlarından olmuş, sovet hakimiyyəti illərində heyvandarlıq və əkinçilik məqsədilə istifadə olunmuşdur. Geniş ərazisi olan Mehri dərəsindəki bol suya malik Orta bulaq, Ayaq bulaq və Baş bulaq burada kənd təsərrüfatının ayrı-ayrı sahələrini inkişaf etdirməyə geniş imkan yaratmışdır.

Bundan başqa, Qızılqaya həm də zəngin heyvanat aləmi ilə də diqqəti cəlb edir. Bu möhtəşəm Qayanın sərt qayalıqları arasındakı mağarada pələng yatağı müəyyən olunmuşdur. Hətta Danyeri kəndinin sakini ovçu Əmrah XX əsrin 60-cı illərinin ortalarında Qızılqayada aslanla əlbəyaxa olmuş, pələngi vurub kəndə gətirmiş, dərisini kənd məktəbinin yanındakı elektrik dirəyindən asmışdı.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin əməkdaşları və muxtar respublikanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi hazırda da Qızılqayada bəbir olduğunu dəqiqləşdirmişlər. Naxçıvan Muxtar Respublikasının "Qırmızı kitab"ında Danyeri kəndi ərazisində bəbir sinfindən olan pələngin olduğu qeyd edilmişdir.

Ona görə də Azərbaycan Ordusunun qəhrəmanlıqla Qızılqayanı işğaldan azad etməsi ilə əkin və heyvandarlıq üçün çox əhəmiyyətli olan geniş ərazilər, nadir heyvanlar aləmi ölkəmizə qaytarılmışdır. Bu ərazidən köçürülməyə məcbur edilmiş *Günnüt kəndi və ətrafındakı böyük kövşənlərdən, yəqin ki, yenidən ölkəmizin yararlı və məhsuldar torpaqları kimi istifadə olunacaqdır.*

Qızılqaya yüksəkliyinin Azərbaycan Ordusunun nəzarətində olması sakinlərin dədə-baba torpaqları olan Günnüt kəndinə qayıtmalarına tam əsas verir. Heç şübhəsiz, *Şərur rayonunun Günnüt kəndində Azərbaycanın işğaldan azad edilmiş ikinci Cocuq Mərcanlı kəndi kimi normal həyat bərpa ediləcəkdir.*

Beləliklə, *Günnüt kəndi Azərbaycan Ordusunun da həmin ərazilərdəki etibarlı arxa cəbhəsi funksiyasını yerinə yetirəcəkdir. Eyni zamanda Qızılqayanın düşməndən geri alınması Şərur torpaqlarının qan damarı hesab edilən Arpaçay dəryaçasının təhlükəsizliyinin təmin edilməsinə meydan açmışdır.*

Artıq kütləvi informasiya vasitələrində Azərbaycan Müdafiə Nazirliyinin Qızılqaya yüksəkliyinin alınması ilə Ermənistanın mərkəzindən Qarabağa gedən əsas magistral yolunun ordumuzun nəzarətinə keçməsi haqqında rəsmi məlumatları yayılmışdır. Həmin əraziləri az qala qarış-qarış tanıdığım üçün bu gerçəkliyin əhəmiyyətini bir daha nəzərə çatdırmaq istərdim.

Belə ki, İrəvandan Dağlıq Qarabağa gedən yeganə magistral yol Naxçıvan Muxtar Respublikasının Sədərək kəndinə çatmamış Arazdəyən adlanan kənddən sol tərəfə dönərək dağlıq ərazi ilə Çanaxçı-Yelpin-Çivə-Arpa kəndlərindən keçməklə Yexeqnadzor-Paşalı istiqamətində indiki Ermənistanın Sisiyan rayonuna çatır və oradan da Gorus-Laçın yolu ilə Şuşaya istiqamətlənir. Qızılqaya yüksəkliyindən həmin strateji şose yolunun Çanaxçı-Yelpin-Çivə-Arpa kəndi ərazisindən keçən hissəsi çox aydın görünür. Ona görə də Qızılqayanın və Günnüt kəndinin fəthi hərbi cəhətdən də son dərəcə əhəmiyyətlidir və Azərbaycan Ordusunun sonrakı həmlələrinə real zəmin yaradır.

*Günnüt kəndinə gedən Bağırsaq dərəsi yolu bağlandıqdan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Eyvazxan yüksəkliyi tərəfdən çətin dağlıq şəraitində Günnüt kəndinin mümkün ola biləcək yaxın ətrafinadək yol çəkdirməsi bu gün xüsusi əhəmiyyətə malik addım kimi diqqəti cəlb edir.*

*Azərbaycan Ordusu nəzarətində olan Qızılqaya və Eyvazxan yüksəkliklərindən alınmaz qala kimi Vətən torpaqlarına ayıq-sayıq keşik çəkir.*

*Şərur rayonunun Danyeri kəndi ərazisindəki Qızılqaya zirvəsində Azərbaycan bayrağının dalğalanması böyük milli qürur hadisəsidir.*

Bu, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda apardığı məqsədyönlü mübarizənin, həyata keçirdiyi müdrik siyasətin real nəticəsidir və ilk böyük təntənələrindən biridir.

*Qızılqaya zəfəri Azərbaycan Ordusunun qalibiyyət yürüşünün yeni bir mərhələsidir.*

Qızılqaya-Günnütün işğaldan azad edilməsi geniş mənada işğalçılıq siyasətinin məhvə məhkumluğunun daha bir göstəricisidir.

*Günnüt kəndinin yeni həyatı Azərbaycanın işğal altında olan bütün ərazilərinin yaxın gələcəyinin nidasıdır.*

Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ölkəmizin ərazi bütövlüyü uğrunda daha böyük inam və qətiyyətlə mübarizə aparmasına tam təminat verir.

Beləliklə, *Qızılqaya həm hərbi-strateji cəhətdən, həm də ərazi bütövlüyü baxımından son qalibiyyət zəfərinin rəmzi olaraq* sabaha daha böyük inamla və ümidlə baxmağa çağırır:

*Qızılqaya –*
*Qədim oba,*
*Oğuz yurdu,*
*Əzəl qaya!*
*Dörd fəsli də*
*Gözəl qaya.*
*Uğur rəmzi,*
*Özəl qaya.*
*Haqq bizimdir,*
*Vaxt bizimdir,*
*Tez ol, qaya!..*

**İsa HƏBİBBƏYLİ**
***AMEA-nın vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik***
***"Azərbaycan" qəzeti 26 iyun 2018-ci il***







## “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”in açılış tədbiri ISESCO-nun saytında işıqlandırılıb




“Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”in açılış tədbiri ISESCO-nun saytında geniş işıqlandırılıb. Buradakı ilk xəbərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycrini qəbul etdiyi qeyd olunub. Ali Məclisin Sədri ISESCO-nun Baş direktorunu salamlayaraq ona Azərbaycan Respublikasının və onun Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin möhkəmləndirilməsi sahəsindəki səylərinə görə təşəkkür edib. Xəbərdə ISESCO-nun Baş direktorunun da Ali Məclisin Sədri cənab Vasif Talıbova bu təntənəli tədbirin yüksək səviyyədə təşkilinə, bunun da Azərbaycan Respublikası ilə səmərəli əlaqələrin möhkəmləndirilməsinə verdiyi töhfəyə görə minnətdarlıq etdiyi vurğulanıb.

Saytdakı genişhəcmli ikinci yazı ISESCO-nun Baş direktorunun həmin tədbirdəki çıxışında vurğuladığı “İslam Mədəniyyət Paytaxtları Proqramı xalqların mədəni kimliyinə qarşılıqlı hörmət əsasında dialoq vasitəsilə sülhə xidmət edir” fikri ilə başlayır.

Yazıda qeyd olunur ki, açılış tədbirində ISESCO-nun Baş direktoru üzv dövlətlərin koordinasiyasında icrası həyata keçirilən İslam Mədəniyyət Paytaxtları Proqramının mahiyyəti barədə danışıb. Bildirib ki, bu proqram ən mühüm mədəni layihə kimi islami dəyərləri özündə əks etdirir və İslam mədəniyyəti paytaxtları da bu baxımdan dəqiq müəyyən olunmuş kriteriyalara cavab verən, İslam mədəniyyətinə və bütövlükdə, ümumbəşəri mədəniyyətin zənginləşməsinə öz töhfəsini verən şəhərlər arasından seçilir.

Daha sonra qeyd edilir ki, proqramın məqsədi xalqların tarixi keçmişini və bu gününü bir arada yaşada bilmək, yaradıcılıq, elm, sənət və digər sahələr vasitəsilə cəmiyyətin sivilizasiyalı inkişafında rol oynayan xüsusi mexanizmlərə üstünlük verməklə xalqlar arasında sülhə nail olmaqdan ibarətdir. Baş direktor vurğulayıb ki, bu proqramlar sayəsində ISESCO mədəniyyət, düşüncə, incəsənət və innovasiyaların genişləndirilməsinə də çalışır. Bu da üzv dövlətlərin dəstəklədiyi tolerantlıq, birgə yaşayış və dialoq kimi ümumbəşəri dəyərlərlə üst-üstə düşür.

Bundan əlavə, yazıda qeyd olunur ki, Baş direktor Əbdüləziz Osman əl-Tuveycri çıxışında xatırladıb ki, Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi 2009-cu ilin oktyabrında Bakıda keçirilmiş İslam ölkələrinin mədəniyyət nazirlərinin konfransının qərarı əsasında qəbul edilib və onun maddi və qeyri-maddi mədəni irsinin zənginliyi, tarixi, mədəni, fəlsəfi fikir, ədəbiyyat, incəsənət və elm kimi sahələrin zənginləşməsinə verdiyi töhfələr əsas götürülüb.

Daha sonra Naxçıvanın bu bölgədəki mühüm mövqeyinin önə çəkildiyi yazıda onun Cənubi Qafqazda, Asiya və Avropanı bir-birinə bağlayan tarixi ticarət yollarının, mədəniyyətlərin və sivilizasiyaların kəsişmə nöqtəsindəki strateji əhəmiyyətindən bəhs olunur. Bildirilir ki, Naxçıvan keçmişdən bu günədək yaşadılan mədəni dəyərləri ilə Azərbaycanın tarixini özündə əks etdirir və bununla da bütün İslam dünyasının ən qədim mərkəzlərindən birinə çevrilib. Yazıda Əbdüləziz Osman əl-Tuveycrinin Naxçıvanın mədəni potensialının bütün Azərbaycanın mədəni irsinin və sivilizasiyalı kimliyinin parlaq ifadəsi, eyni zamanda bütün İslam sivilizasiyasının idealı olduğu fikri qeyd edilib.

Daha bir maraqlı məqam isə Baş direktorun erkən İslam dövrünə aid ərəb kitabı “Bilad Əl Reha”ya istinadən dediyi “Naxçıvan qədim sivilizasiyanın izlərini təcəssüm etdirən abidələri və qədim tarixin mədəni, iqtisadi və siyasi sahələrdəki aparıcı rolunu özündə yaşatmaqdadır” sözləri də diqqəti cəlb edir.

Məqalədə bu tədbirin İslam dünyası qarşısında artan problemlər fonunda keçirildiyi vurğulanıb. ISESCO-nun Azərbaycan Respublikasının səlahiyyətli orqanları ilə birgə bundan sonra da bir sıra işlər həyata keçirəcəyi qeyd edilib. Diqqətə çatdırılıb ki, adıçəkilən təşkilat həmin layihəni bundan sonra da dəstəkləyəcək və üzv dövlətlərin birgə əməkdaşlığının möhkəmləndirilməsinə, bütün sahələrdə, xüsusən elm və təhsil əlaqələri vasitəsilə mədəniyyət sahəsində koordinasiya və inteqrasiya əlaqələrinin genişləndirilməsinə köməyini əsirgəməyəcək.

“Bu, İslam dünyasının yeni sivilizasiyalı dəyərlərə qoşulmasının möhkəm əsasını təkşil etməklə bizim ən birinci vəzifəmizdir”, – deyə saytdakı məqaləyə yekun vurulur.

**Əli CABBAROV**

## Naxçıvan teleradiosuna yeni çəkiliş və efir avadanlıqları təqdim olunub

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2018-ci il fevralın 6-da “Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi ilə bağlı “Tədbirlər Planı”nın təsdiq edilməsi barədə Sərəncam imzalayıb. Yeni yayım və çəkiliş avadanlıqları da həmin sərəncamın icrası çərçivəsində alınıb.***





Bu sözləri təqdimat tədbirində Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli deyiblər.

Bildirilib ki, 163 min manat dəyərində olan müasir yayım və çəkiliş avadanlıqları dünyanın qabaqcıl ölkələrinin istehsalıdır. Yeni texniki vasitələr teleradionun, eləcə də “Nuhçıxan” İnformasiya Agentliyinin fəaliyyət imkanlarını daha da artıracaq. Səyyar çəkilişlərin operativliyi, sənədli filmlərin hazırlanması, çəkiliş və efir keyfiyyətinin yüksəldilməsi baxımından da yeni avadanlıqlar mühüm əhəmiyyət kəsb edəcək, teleradionun maddi-texniki bazasını daha da möhkəmləndirəcək.

Çıxış edənlər muxtar respublikada kütləvi informasiya vasitələrinin fəaliyyətinə yaratdığı hərtərəfli şəraitə görə Ali Məclis Sədrinə öz minnətdarlıqlarını bildiriblər.

Komitənin Kompüter şöbəsinin müdiri Elçin Məmmədov yeni avadanlıqları təqdim edib.

Bildirib ki, xüsusi sifarişlə yığılan mobil çəkiliş studiyası və çəkiliş pultu, əlaqə qurğuları, videokamera dəstləri, professional fotokamera, “GoPro” kameraları, “Osmo” hərəkətli kamera, 2 ədəd SDCAM qurğusu, “Dynacord” səs pultu, “Sony” markalı əl mikrofonları, siqnalçevirici qurğular, 600 metrlik HD kabel və qutuları, eləcə də digər avadanlıqlar ən son texnologiyaya əsaslanır.

Avadanlıqların işləmə funksiyaları və keyfiyyəti haqqında ətraflı məlumat verilib. Bildirilib ki, alınan avadanlıqların hər biri 4K keyfiyyətinə malikdir.

**NUHÇIXAN informasiya agentliyi**

## Şəhid atası Əli Tatarov: “Günnüt kəndinin düşməndən azad olunması tarixin qəhrəmanlıq səhifəsinə yazıldı və mən qürur duyuram ki, oğlum Adilin adı da o səhifədə yaşayacaq”



Yaşadığımız hər gün tarixə dönür. Tarixə yazılan günlərin isə hamısı yaddaqalan olmur. Amma bəzi günlər heç vaxt unudulmur, yaddan çıxmır, bir xalqın tarix yaddaşına əbədilik yazılır. Belə unudulmaz günlərdən birini də xalqımız yaxın vaxtlarda yaşadı. May ayının sonlarında düşmənin Naxçıvan istiqamətində əl atdığı təxribata cavab olaraq Əlahiddə Ümumqoşun Ordu 26 il işğal altında olan Şərur rayonunun Günnüt kəndini və 11 min hektar ərazini azad edərək mühüm strateji üstünlüklər əldə etdi. Günnüt qələbəsi hərbi-strateji əhəmiyyətinə görə qüdrətli ordumuzun aprel döyüşlərindən sonrakı ən böyük zəfəri idi.

Günnütlülərin 26 illik torpaq həsrətinə son qoyuldu. 26 il sonra Günnüt kəndindən murdar erməninin izi birdəfəlik silindi, kənddə müqəddəs “Quran” səsi eşidildi, ən uca zirvəyə – Qızılqaya yüksəkliyinə Azərbaycan bayrağı sancıldı. Həmin gecə qələbə zəfəri yaşamağımız xalqımızın bir ən belə düşünmədən canını Vətəni üçün qurban verməyə hazır olan igid oğulları sayəsində oldu. Tatarov Adil Əli oğlu öz adını qədim Naxçıvanın qəhrəmanlıq tarixinə yazdı.

Bu günlərdə şəhidimizin valideynləri övladlarının şəhid olduğu, xatirəsinin əziz tutulduğu Naxçıvan Muxtar Respublikasında oldular. Onlarla həmsöhbət olduq. Adilin atası Əli Tatarovun dediklərindən: – Bu gün Naxçıvan şəhərində ilk olaraq bizə müstəqilliyi, azadlığı xalqımıza ərməğan edən ulu öndərin şəhərin mərkəzində əzəmətlə ucalan abidəsini və dahi rəhbərin xatirəsinin yaşadıldığı, mənalı ömür yolunun, Azərbaycançılıq ideyalarının təbliğ olunduğu Heydər Əliyev Muzeyini ziyarət etməyi bir vətəndaşlıq borcu bildik.

Vaxtilə oğlumla saxladığım telefon əlaqələri zamanı onun Naxçıvanla bağlı söylədikləri bir valideyn kimi qəlbimə rahatlıq gətirmişdi. Bura gələrkən hər tərəfdə gördüyüm səliqə-sahman, sakitlik, nizam-intizam deyilənləri bir daha təsdiq etdi. Oğlumla son söhbətimdə o, təlimlərdə iştirak etdiyini və “Ata, əmin ol, mən torpağımızın azadlığı uğrunda canımdan keçməyə hazıram! Vətənimizi düşmən tapdağında qoymayacağıq”, – dedi. Deyirlər ki, şəhid olacaq insanlar bunu öncədən hiss edir. Adil də son dəfə mənimlə elə danışdı ki, sanki o da şəhid qardaşlarına qoşulub, öz qızıl qanı ilə adını Azərbaycan xalqının zəfər dastanının səhifələrinə yazacağını əvvəlcədən duymuşdu. Vətən torpağının bir qarışının belə, düşmənin əlinə keçməsinə göz yuma bilməyən oğlum və onun kimi oğullar ölümü şərəfli yol kimi seçirlər. Onlar Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin də vurğuladığı kimi, qələbə soraqlı bayrağımızın gələcəkdə Xankəndidə, Şuşada, Kəlbəcərdə, Zəngilanda, Laçında, Azərbaycanın işğal altındakı digər ərazilərində dalğalanması naminə canlarından keçdilər. Günnüt kəndinin düşməndən azad olunması tarixin qəhrəmanlıq səhifəsinə yazıldı və mən qürur duyuram ki, oğlum Adilin adı da o səhifədə yaşayacaq. Bizim üçün övlad acısı nə qədər ağır olsa da, 11 min hektar ərazinin geri qaytarılması ən böyük təsəllimizdir. Bunu oğlumun şəhid düşdüyü Günnüt kəndinin bu gün Azərbaycan Ordusunun nəzarəti altında olduğunu öz gözlərimizlə gördükdə, Adilin qəhrəman döyüş yoldaşları ilə tanış olarkən bir daha hiss etdik. Bizə bu şəraiti yaradanlara xüsusi minnətdarlığımı bildirirəm.

Azad edilmiş torpaqlarımızda zəfər bayrağı dalğalananda, hımnimiz səsləndə Adil və onun kimi igid Vətən oğulları da yada düşəcək, onların ruhu şad olacaq. Oğlum dövlət başçısı cənab İlham Əliyevin sərəncamı ilə “Vətən uğrunda” medalı ilə təltif olunub. Onun şəhid olduğu bu torpaqda – Naxçıvanda belə bir xəbəri almağımız bizi qürurlandırdı.

Şəhid anası Şükufə xanım da söhbətə qoşuldu: – Azərbaycan xalqının yenilməz, mübariz olduğunu şəhidlik zirvəsinə ucalan övladlarının şücaəti, oğul itkisinə mətanətlə dözən müqəddəs anaların dəyanəti ilə də təsdiqləyir. İllərdir, müharibə şəraitində yaşayırıq hər dəfə şəhid xəbəri alanda öz balamı itirirmiş kimi mənim də ürəyim qəhərlənirdi. Bu gün mən də bu taleyi yaşayıram. Gözümün ağı-qarası bircə oğlum məni bu yüksək mərtəbəyə layiq gördü. Şəhid anası... İndi mən bütün azərbaycanlı oğulların anasıyam. Mən böyük fəxr duyuram ki, oğlum torpaq uğrunda şəhid olub. Yeganə oğlumun uğrunda canından keçdiyi bu torpağa qədəm qoyanda övladımın nə qədər uca bir zirvəyə yüksəldiyini bir daha dərindən duydum. Bu qədim diyara gəlməyimiz, burada hər addımda şəhid balamın ruhuna böyük ehtiramla qarşılaşmağımız bizə sonsuz qürur yaşatdı. Mən şəhidlərimizə və onların ailələrinə göstərilən qayğıya, diqqətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığımı bildirirəm.



**Ramiyyə ƏKBƏROVA**

## Növbəti maarifləndirici tədbir keçirilib



***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə keçirilən növbəti maarifləndirici tədbiri xidmətin əməkdaşı Şəhanə Seyidova açıb. Bildirilib ki, bu gün muxtar respublikamızda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları yüksək səviyyədə qorunur, müraciətlərinə vaxtında baxılır, onların iştirakı ilə mütəmadi olaraq maarifləndirici tədbirlər təşkil edilir.***

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin əməkdaşı İman Alırzayev çıxış edərək “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018” mövzusunda tədbir iştirakçılarına ətraflı məlumat verib. Qeyd olunub ki, bu gün keçirilən tədbirin məqsədi də əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri İslam mədəniyyəti və dəyərləri ilə tanış etmək, onları maarifləndirməkdir.

Vurğulanıb ki, muxtar respublikamızda dini dəyərlərimizin qorunub yaşadılması istiqamətində həyata keçirilən tədbirlər cəmiyyət tərəfindən rəğbətlə qarşılanır. Ziyarətgahlar bərpa olunur, yeni məscidlər tikilir, dindarlar üçün lazımi şərait yaradılır. Son illər yeni tikilən məscidlər, təmir olunan türk-islam abidələri dövlətin bu sahəyə xüsusi diqqət və qayğı göstərdiyinin bariz nümunəsidir.

Tədbirdə mövzu ilə bağlı videoçarx nümayiş olunub. Sonra tədbir iştirakçılarının “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksinə gəzintisi təşkil edilib.

✍ **Nail ƏSGƏROV**

## Plastiklərdən istifadə zamanı diqqətli olun!

Müasir dünyada məişətimizi plastiklərsiz təsəvvür etmək çətindir. Gündəlik məişət əşyalarının çox hissəsi ya plastik kütlədən hazırlanır, ya da konstruksiyalarında plastik elementlərdən istifadə edilir. Yeyinti məhsullarının qablaşdırılmasında plastik kütlədən hazırlanmış istehlak taralarından, birdəfəlik qablardan istifadə edilməsi günü-gündən artmaqdadır. Məlumat üçün bildirək ki, plastik kütlə, əsasını təbii və ya sintetik yüksək molekulyar birləşmələr – polimerlər təşkil edən üzvi materialdır. Onlardan ən çox istifadə olunanları sintetik polimerlər əsasında istehsal olunmuş plastiklərdir. Ümumilikdə isə plastiklərin bir çox növü vardır.

1980-ci illərin sonlarında Beynəlxalq Plastik Kütlə Sənayesi Cəmiyyəti tərəfindən plastiklərin bütün növləri üçün markalanma və identifikasiya kodları sistemi işlənib hazırlanıb. Plastiklərin markalanması üçün üçbucaq formasında 3 oxdan ibarət və ortasında plastikin növünü göstərən rəqəm yerləşən xüsusi simvol – işarə qəbul edilib. Bir çox hallarda məmulatların markalanması zamanı plastikin tipini göstərmək üçün üçbucağın altında hərfi markalanma da göstərilir. Plastiklərin simvol işarələri aşağıdakı kimidir:




***PET və ya PETE – Polietilenteraftalat.*** Adətən, mineral su, alkoqolsuz içkilər və meyvə şirələri üçün butulkaların, müxtəlif qablaşdırma vasitələrinin, o cümlədən qida məhsulları üçün qablaşdırma vasitələrinin hazırlanmasında istifadə olunur.




***PE-HD və ya HDPE – Yüksək sıxlıqlı polietilen.*** Bu plastikdən şampun və yuyucu vasitələr üçün butulkalar, mehtərələr (flyaqa), plastik paketlər, süd paketləri, içməli su boruları kimi məhsullar hazırlanır. Yeyinti sənayesində qablaşdırma üçün istifadəyə yararlı və təhlükəsizdir.




***PVC və ya V – Polivinilxlorid.*** Boru, açıq havada istifadə olunan mebel, döşəmə örtüyü, pəncərə profili, jalüz, izolyasiya lenti, yuyucu vasitələr üçün tara kimi məhsulların istehsalında istifadə olunur. Qida məhsullarının qablaşdırılmasında istifadə üçün potensial təhlükəlidir. Belə ki, tərkibində dioksinlər, bisfenol A, civə, kadmium kimi toksiki maddələr ola bilər.




***PE-LD və ya LDPE – Aşağı sıxlıqlı polietilen.*** Ərzaq və tullantı üçün kisə və paketlərin, yeyinti məhsullarının üzərinə plyonkaların, elastik qabların və sair bu kimi məhsulların istehsalında istifadə olunur. Qida məhsullarının qablaşdırılması üçün istifadəsi təhlükəsizdir.




***PP – Polipropilen.*** Avtomobil sənayesində (avadanlıq, bamperlər), uşaq oyuncaqlarının hazırlanmasında, həmçinin qida sənayesində, əsasən, qablaşdırma vasitələrinin hazırlanmasında istifadə olunur. İçməli su kəmərləri üçün polipropilen borular geniş yayılıb. Polipropilen qida məhsullarının qablaşdırılmasında istifadə olunan ən təhlükəsiz plastikdir. O, yüksək temperatura davamlıdır. Buna görə də ondan hazırlanan qablardan isti yeməklər və içkilər üçün istifadə etmək olar.




***PS – Polistirol.*** Binaların istilik izolyasiya plitələrinin hazırlanmasında, qida qablaşdırma vasitələrinin, yemək dəstləri və fincanların, uşaq oyuncaqları, qab-qacaq, qələm və sair məhsulların istehsalında istifadə edilir. Polistiroldan hazırlanan qablar yalnız soyuq qida məhsulları və sərinləşdirici içkilər üçün yararlıdır. Belə ki, qızdırıldıqda özündən yüksək toksiki maddə olan stirol alınır. Ona görə də polistiroldan hazırlanan qablardan isti məhsullar, içkilər, həmçinin alkoqollu içkilərin saxlanması, mikrodalğalı sobada yeməyin qızdırılması üçün istifadə oluna bilməz.




***O və ya OTHER –Xüsusi işarələri olmayan plastiklər (rəqəmsal kodu 08-dən 19-dək).*** Bu qrupa yuxarıdakı qruplara düşməyən istənilən digər plastik növləri aiddir. Bunlar, əsasən, polikarbonatlardır. Polikarbonatların tərkibində insan üçün təhlükəli olan bisfenol A maddəsi olma ehtimalı var. Bərk şəffaf məmulatların hazırlanmasında istifadə olunur.

Göründüyü kimi, plastiklərdən bir çox sahələrdə istifadə edilir. Qüvvədə olan AZS 333-2009 dövlət standartına əsasən yeyinti məhsullarının qablaşdırılması üçün polimer maddələrdən hazırlanmış vasitələrin istifadəsinə icazə verilir. Yeyinti və uşaq məhsullarının istehsalında istifadə olunan plastik kütlələr sanitar-gigiyenik normalara və standartlara əsasən ekspertizadan keçməli və mütləq uyğunluq sertifikatı ilə müşayiət olunmalıdır. Bütün istehsalçılar məcburi qaydada öz məhsullarının markalanmasında plastikin növünü göstərməlidirlər. Plastik məmulatların markalanmasında plastikin növünü göstərən simvollarla bərabər, onun yeyinti və ya texniki məqsədlər üçün nəzərdə tutulduğunu bildirən, beynəlxalq səviyyədə qəbul olunmuş “qədəh və çəngəl” simvolundan – piktoqramdan plastik kütlənin yeyinti məhsulları və ya qeyri-ərzaq məhsulları üçün nəzərdə tutulduğunu bildirmək məqsədilə istifadə olunur.





Qeyd olunan simvollarla yanaşı, plastik kütlədən hazırlanmış istehlak taralarının üzərində onun soyuq məhsullar üçün nəzərdə tutulduğu, isti məhsullar üçün istifadəyə icazə verilib-verilmədiyi, mikrodalğalı sobada və ya dondurucuda istifadə edilib-edilməyəcəyi göstərilməlidir.

Ümumiyyətlə, şəraitdən asılı olaraq bir sıra hallarda plastik kütlələrdən toksiki birləşmələr ayrılır ki, bu da insan orqanizminə düşdükdə onun sağlamlığına mənfi təsir göstərir. Müxtəlif növ plastik kütlələr müxtəlif şərtlərdə toksiki ola bilirlər – bir qismini qızdırmaq, bir qismini dondurmaq, bir qismini isə yumaq olmaz.

Unutmamalıyıq ki, plastik qablardan təyinatı üzrə düzgün istifadə edilməməsi olduqca zərərlidir. Məsələn, +40°C-dən yuxarı temperaturda polistiroldan hazırlanmış qablarda stirol maddəsi yaranır ki, bu da insan orqanizmi üçün təhlükəlidir. Birdəfəlik plastik qablardan təkrar istifadə zamanı onun xarici mühafizə təbəqəsi zədələnir və kanserogen maddələr – formaldehidlər, fenol, kadmium, civə ayrılmağa başlayır. Birdəfəlik plastik stəkanlarda spirtli içkilərin içilməsi yolverilməzdir. İstənilən plastikdə toksiki maddələr var ki, adi soyuq içkilərdə həll olunmur, ancaq alkoqolun kimyəvi təsirinə məruz qaldıqda zərərli mühit yaradırlar.

Qida məhsulları insanlar üçün, ilk növbədə, təhlükəsiz olmalıdır. Bu meyarı öz fəaliyyətində prioritet kimi qəbul edən Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi muxtar respublikada fəaliyyət göstərən istehsalçı və ya idxalçı təsərrüfat subyektlərində aparılan maarifləndirmə xarakterli monitorinqlər çərçivəsində məhsulların qablaşdırılmasında plastik kütlədən hazırlanmış qablardan və istehlak taralarından təyinatı üzrə istifadə prosesini nəzarətdə saxlayır, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir.

Agentlik istehlakçıları plastiklərdən istifadə zamanı diqqətli olmağı və mümkün alternativlər üzrə təbii materiallardan, xüsusilə şüşədən, kağızdan və digər ağac materiallarından hazırlanmış qablaşdırma vasitələrinə üstünlük verməyi tövsiyə edir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin mətbuat xidməti***

*İdman*

## Karateçilərimizdən böyük uğur




Bakı şəhərində Azərbaycan Respublikası Karate Federasiyasının və “Arpaçay” Karate Klubunun təşkilatçılığı ilə Milli Qəhrəman Albert Aqarunovun xatirəsinə həsr olunmuş Qara dəniz və Xəzəryanı ölkələrin idmançıları arasında karate üzrə beynəlxalq turnir keçirilib. Turnirdə 5 ölkənin 100 komandasının heyətində 1000 idmançı mübarizə aparıb.

Beynəlxalq turnirdə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının 20 idmançısı iştirak edib.

Yekun nəticəyə əsasən oğlanlar arasında Nicat Allahverdiyev +84 kiloqram çəki dərəcəsində kata üzrə I, kumite üzrə III, Vüsal Seyidov -37 kiloqram çəki dərəcəsində II, Rafiq Hüseynov +23 kiloqram çəki dərəcəsində II, Sərcan Məmmədov -55 kiloqram çəki dərəcəsində II, Həsən Səfərli -23 kiloqram çəki dərəcəsində, Ziya Məmmədli -20 kiloqram çəki dərəcəsində, Qafar Hüseynov -33 kiloqram çəki dərəcəsində və Seyran Quluzadə -43 kiloqram çəki dərəcəsində III yerlərə layiq görülüblər.

Qızların mübarizəsində isə Özləm Hacıyeva -25 kiloqram çəki dərəcəsində I, Aminə Novruzzadə -30 kiloqram çəki dərəcəsində I, Zəhra Məmmədova -25 kiloqram çəki dərəcəsində 2 yaş qrupunda 2 dəfə II, Çinarə Cəlalova +54 kiloqram çəki dərəcəsində III, Rəna Düzənci isə -35 kiloqram çəki dərəcəsində III olublar.

Sonda qalib idmançılarımız təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

## Şahmatçılarımız beynəlxalq turnirdə qələbə qazanıblar

Türkiyənin Ordu Böyükşəhir Bələdiyyə İdman Klubunun təşkilatçılığı ilə “Naxçıvan-Ordu dostluq körpüsü” devizi altında keçirilən şahmat üzrə beynəlxalq dostluq turniri başa çatıb.



Ordu şəhərində, ümumilikdə, 56 şahmatçının mübarizə apardığı turnirdə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının 20 şahmatçısı və 3 məşqçi-müəllimi iştirak edib. Zəka sahiblərimiz turnirdə yüksək nəticələr göstəriblər.

Belə ki, cəmi 9 turdan ibarət olan turnirin yekun nəticəsinə əsasən Sadiq Qarayev qalib adını qazanıb. Digər idmançımız Əli Əliyev isə ikinci olub, Əsgər Əsgərov turnirin azyaşlı şahmatçısı kimi medalla təltif edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Yüngül Atletika Federasiyasında görüş

*Xəbər verdiyimiz kimi, Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının yetirmələri Bakı şəhərində keçirilən Azərbaycan birinciliyində mübarizə aparıblar. İdmançılarımız həmin birincilikdə 12 müxtəlif əyarlı medal qazanıblar.*

Bu münasibətlə Yüngül Atletika Federasiyasında idmançı və məşqçi-müəllimlərlə görüş keçirilib. Federasiyanın sədri Rövşən Məmmədov çıxış edərək bildirib ki, bu gün Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə olduğu kimi, bədən tərbiyəsi və idmanın inkişafına da xüsusi diqqət yetirilir, yeniyetmə və gənclərin fiziki və mənəvi hazırlığı, asudə vaxtlarının səmərəli təşkili daim diqqət mərkəzində saxlanılır. Muxtar respublikada müasir idman infrastrukturunun, olimpiya komplekslərinin, digər obyektlərin istifadəyə verilməsi, idmanın müxtəlif növləri üzrə federasiyaların yaradılması gənclərin idmana cəlbinə şərait yaradıb. Naxçıvanda idman ənənələrinin formalaşması bu gün uşaqların da bu sahəyə kütləvi şəkildə axınına səbəb olub.

Qeyd olunub ki, Yüngül Atletika Federasiyası yarandığı gündən muxtar respublikanın Gənclər və İdman Nazirliyi ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərir. Bu gün federasiyanın nəzdindəki klublar və rayon bölmələri yüksək nəticələr əldə edir, idmançılarımız çıxış etdikləri turnirlərdə, yarışlarda böyük uğurlar qazanırlar. Onların düzgün istiqamətləndirilməsində federasiyaların üzərinə böyük məsuliyyət düşür. Yüngül Atletika Federasiyası da aidiyyəti idman növünün təbliği üçün mütəmadi olaraq yarışlar təşkil edir. Rövşən Məmmədov ölkə birinciliyində uğur qazanan idmançılarımızı təbrik edib, onlara yeni-yeni nailiyyətlər arzulayıb.

Sonra çıxış edən federasiyanın sədr müavini İntiqam Rəhimov, məşqçi-müəllimlər və idmançılar yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlıqlarını bildiriblər.

Sonda qalib idmançılar mükafatlandırılıb.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Hacıyeva Aytən Məmməd qızının adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 467**